# Postmüharibə reallığı regionda yeni iqtisadi-siyasi inkişafa güclü təkan verəcək



***Torpaqlarını işğaldan azad edən Azərbaycan Cənubi Qafqazda yeni reallıqlar formalaşdırdı. 30 ildir regionu təhdid edən Qarabağ problemi həll olundu. Bu reallıqlar Azərbaycanın beynəlxalq səviyyədə təsdiq olunmuş hüquqlarını bərpa etməsi, torpaqlarımızın işğaldan azad olunması, Ermənistanın işğal siyasətinə son qoyulmasıdır. Bundan başqa, tarixi qələbəmiz Cənubi Qafqaz və Xəzər dənizi hövzəsi regionlarında yeni iqtisadi və siyasi əməkdaşlığın əsasını qoydu, bölgə ölkələrinin qarşısında əlaqələrin daha da inkişaf etdirilməsi üçün yeni imkanlar açdı. Azərbaycan, Türkiyə və İran dövlətlərinin son addımları məhz belə deməyə əsas verir.***

Bu gün Azərbaycan Cənubi Qafqazda və Xəzər dənizi hövzəsində iqtisadi və siyasi sabitliyin dayağı kimi qiymətləndirilir. Xüsusilə də 44 günlük İkinci Qarabağ müharibəsindən sonra regionda yaranmış yeni reallıqlar fonunda rəsmi Bakının və strateji tərəfdaşları ilə birgə yürütdüyü siyasət Azərbaycanın geosiyasi aktor kimi çəkisini daha da artırır. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələri ərazi bütövlüyümüzü bərpa etdikdən dərhal sonra ölkə başçısının tapşırıqlarına uyğun olaraq Qarabağda başlanılan quruculuq işləri intensiv şəkildə həyata keçirilir.

Müharibədən sonrakı dövrdə görülən işlərə baxarkən azad edilmiş rayonlarımızda bərpa və təmir işlərinin tempi onu göstərir ki, tezliklə Qarabağ Cənubi Qafqazda ən müasir yaşayış məntəqəsinə çevriləcəkdir. Bu dövrün ən mühüm hadisələrinə nəzər saldıqda Cənubi Qafqazda yeni reallıqlar yaratmış 10 noyabr Bəyanatının xüsusi əhəmiyyətini vurğulamaq lazımdır. Bu sənəd nəinki regionda sülhün və təhlükəsizliyin təminatıdır, həm də beynəlxalq birliyin Azərbaycanın ərazi bütövlüyünə heç vaxt şübhə etməməsinin parlaq təzahürüdür. Bütün bunlar bir daha onu deməyə əsas verir ki, Azərbaycan regionda sülhün və təhlükəsizliyin təminatçısı olmaqla, ümumilikdə, Qafqazda regional güc mərkəzinə çevrilmişdir.

Təbii ki, Qarabağ bölgəsinin yenidən qurulmasında əsas nailiyyətlərdən biri Füzulidə yeni beynəlxalq hava limanının açılışı oldu. Qarabağın hava qapısı olan Füzuli Beynəlxalq Hava Limanı ən müasir səviyyədə inşa olunmuşdur və istənilən təyyarəni qəbul etmək imkanları var. Burada görülən bütün işlər beynəlxalq norma və standartlara uyğun şəkildə həyata keçirilmişdir və sərnişinlərin rahatlığı üçün hər cür şərait yaradılmışdır. Mütəxəssislərin sözlərinə görə, Füzuli Beynəlxalq Hava Limanının Qarabağ və Şərqi Zəngəzur iqtisadi regionuna daxil olan rayonların investisiya imkanlarını da artırır. Həmçinin Füzuliyə, Ağdama, Cəbrayıla, Zəngilana, Qubadlıya gedən qonaqlar da bu aeroportdan istifadə edə biləcəklər.

Bundan başqa, Azərbaycan işğaldan azad edilmiş ərazilərində – Zəngilan və Laçın rayonlarında daha iki hava limanı tikir. Zəngilan Beynəlxalq Hava Limanının tikintisinə 2021-ci ilin mayında başlanılmışdır və bu il başa çatdırılacaq. Prezident İlham Əliyevin sözlərinə görə, Zəngilan rayonunun coğrafi yerləşməsi və burada olan imkanlar təbii ki, Zəngilanı beynəlxalq nəqliyyat-logistika mərkəzinə çevirmək üçün geniş imkanlar yaradır: "Təsadüfi deyil ki, hava limanı məhz Zəngilanda inşa ediləcək. Çünki coğrafi vəziyyətə baxdıqda hər kəs görə bilər ki, Füzuli, Zəngilan və ondan sonra Laçın rayonunda inşa ediləcək üçüncü beynəlxalq hava limanı bütün Qarabağ və şərqi Zəngəzur zonasını Zəngilan daxil olmaq şərtilə əhatə edəcək. Buradan dəmir yolu, avtomobil yolu keçəcək, Naxçıvana yol açılacaq. Əlbəttə ki, Zəngilanın gələcək uğurlu sosial-iqtisadi inkişafı üçün bu hava limanının böyük rolu olacaqdır".

Mütəxəssislərin sözlərinə görə, Zəngilanda Hava Limanının tikilib istifadəyə verilməsi, eyni zamanda, Azərbaycan üçün şərqə yeni qapı açacaq. Belə ki, Zəngəzur dəhlizinin açılması növbəti tarixi nailiyyət olacaq və Şərqi Zəngəzurdan Qərbi Zəngəzura uzanan bu nəqliyyat arteriyası nəinki region ölkələri, həmçinin geniş anlamda iqtisadi fəallığı təmin edəcək. Bu üç hava limanı regionun iqtisadi reinteqrasiyası üçün böyük əhəmiyyət kəsb edəcək.

Bir sözlə, ən müasir tələblərə cavab verən beynəlxalq hava limanlarının inşası Azərbaycan dövlətinin qüdrətini göstərməklə yanaşı, həm də işğaldan azad edilmiş rayonlarımıza həyatın tezliklə qayıdacağından xəbər verir. Bu hava limanı, eyni zamanda, işğaldan azad olunmuş torpaqlarımızda aparılan quruculuq işlərinin daha da sürətlənməsinə töhfə verəcək, ümumilikdə, bölgənin sosial-iqtisadi inkişafında müstəsna rol oynayacaq. Hava limanlarına bitişik sənaye zonalarının yaradılması da nəzərdə tutulur. Artıq Türkiyənin özəl şirkətləri Zəngilan rayonunda aqroparkın tikintisinə başlamışdır. Xatırladaq ki, Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ötən il oktyabrın 26-da Zəngilan rayonunda "DOST Aqropark"ın təməlini qoymuşdular. "DOST Aqropark" layihəsi üç mərhələdə icra olunacaq. Layihənin birinci mərhələsində inzibati binalar, qapalı və yarıaçıq heyvandarlıq kompleksləri, sosial obyektlər, kafe, kinoteatr, istirahət zonası, xidməti heyətin qalması üçün binalar tikiləcək. Kompleksdəki otlaq sahələrində 4 min baş cins qaramalın yetişdirilməsi, əkinçilik məhsulları istehsalı və digər fəaliyyətlər də həyata keçiriləcək. Bütün bunlar Azərbaycanın və Türkiyənin qida təhlükəsizliyinə töhfə verəcək, bölgənin əkinçilik və heyvandarlıq məhsullarının beynəlxalq bazarlara çıxarılmasına imkan yaradacaq. Aqropark tam işə düşdükdən sonra burada 500 nəfərə iş imkanı yaradılacaq. Yeni hava limanları müasir logistika və nəqliyyat mərkəzlərinin də diqqət mərkəzində olacaq. Hava limanları və onlarla əlaqəli infrastruktur regionun təhlükəsizliyini və əlaqəsini artıracaq.

Əlbəttə, azad olunmuş torpaqlarda kommunikasiya xətlərinin açılması region üçün böyük imkanlar yaradır. Azərbaycanla İran arasında qonşu ölkənin ərazisindən keçməklə, Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan MR arasında kommunikasiya bağlantılarının yaradılması haqqında imzalanan anlaşma memorandumuna əsasən, yeni dəhlizin inşasına başlanılacaq. Belə ki, Ermənistan sərhədi ilə 5 kilometr məsafədən keçəcək sözügedən yol boyunca avtomobil və dəmir yolu, eləcə də rabitə və enerji təminatı xətlərinin yaradılması nəzərdə tutulur. Mütəxəssislərin sözlərinə görə, Rusiyaya qarşı sanksiyalar Şərqi Zəngəzurla Naxçıvanı birləşdirən layihənin strateji əhəmiyyətini da da artırır. Belə ki, Qərbin sanksiyaları Şimal dəhlizini faktiki olaraq sıradan çıxardığından Moskva daşımalarda Orta dəhlizin keçdiyi Azərbaycan marşrutundan istifadə etməli olacaq. Mahiyyət etibarilə, Ermənistan ərazisindən keçəcək Zəngəzur dəhlizinin şimal istiqaməti ilə bir-birini tamamlayacaq. Yeni kommunikasiya bağlantısı Azərbaycan və onun tərəfdaşlarının imkanlarını xeyli genişləndirəcək.

Ekspertlər, həmçinin bildirirlər ki, Şərqi Zəngəzurdakı Laçın və Zəngilan kimi yeni hava limanları Şuşaya aparan Zəfər yolu ilə yanaşı, turizmin mühüm elementinə çevriləcək. Zəngəzur dəhlizinin önəmi həm iqtisadi, həm siyasi, həm də tarixi baxımdan çox vacibdir və Azərbaycanın tarixinin əvəzedilməz parçası olaraq qalır. Prezident İlham Əliyevin dəfələrlə vurğuladığı kimi, Zəngəzur dəhlizinin Azərbaycan iqtisadiyyatında çox böyük rolu olacaq. Bu dəhlizin ən vacib nüanslarından biri ondan ibarətdir ki, o, nəinki Azərbaycanla Naxçıvan arasındakı nəqliyyat əlaqələrinin şaxələndirməsinə, həmçinin Xəzər və Aralıq dənizindən başlayaraq Cənub Şərqi Asiya və Mərkəzi Asiya olmaqla Avropa arasındakı nəqliyyat-logistika xətti funksiyasını yerinə yetirəcək.

Şübhəsiz, İkinci Qarabağ müharibəsinin nəticələri Cənubi Qafqaz regionunda və Xəzər dənizi hövzəsində yeni geosiyasi vəziyyətin formalaşmasında mühüm mərhələ oldu. Bu gün yeni geosiyasi reallıq qlobal və regional dövlətlər tərəfindən qəbul edilir. Azərbaycanın strateji tərəfdaşları ilə atdığı addımlar onu göstərir ki, regionda siyasi və iqtisadi əlaqələrin formalaşması üçün səmərəli işgüzar mühit var. Belə ki, Qarabağ regionunun münaqişədən sonrakı dirçəliş strategiyası çərçivəsində yerli və xarici özəl investisiyalar, kreditlər, qrantlar, texniki yardımlar cəlb olunur. Türkiyə, İtaliya, Çin, İran, ABŞ və bir sıra digər ölkələrin iş adamları investisiya layihələrində iştiraka və infrastrukturun bərpasına hazır olduqlarını bildirirlər.

Ümumiyyətlə, Türkiyə biznesi Qarabağ bölgəsində tikinti, kənd təsərrüfatı sektoru və turizmin inkişafında fəal iştirak etməyə hazırdır və artıq bu istiqamətdə əməkdaşlıq həyata keçirilir. Avropanın bir sıra ölkələri də, eyni zamanda, işgüzar dairələrindən də bərpa və yenidənqurma işlərində iştiraka hazır olduqları barədə bəyanatlar eşidilir. Bu, enerji infrastrukturunun bərpası, şəhərsalma, ərazilərin minalardan təmizlənməsi, tarixi abidələrin bərpası, turizm və kənd təsərrüfatı sahəsində olan əməkdaşlıqdır. Burada qeyd etmək yerinə düşər ki, bir sıra postsovet ölkələri də Qarabağın dirçəlişində iştirak etməyə maraq göstərirlər. İnfrastruktur obyektlərinin, o cümlədən, beynəlxalq kommunikasiyaların bərpası həm Cənubi Qafqazın sərhədləri daxilində, həm də ondan kənarda vəziyyəti xeyli yaxşılaşdıracaq.

***Səbuhi MƏMMƏDOV,***
***"Xalq qəzeti"***